# Davamlı sülh yalnız ədalət və hüquqi məsuliyyət əsasında mümkündür

*Azərbaycanın son illərdə əldə etdiyi uğurlar yalnız hərbi və siyasi qələbə ilə məhdudlaşmır. Ölkəmiz, eyni zamanda, hüquqi müstəvidə də mühüm nəticələrə nail olaraq, xalqımıza qarşı törədilmiş insanlıq əleyhinə və müharibə cinayətlərinə obyektiv qiymət verilməsini təmin edib. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü və tam suverenliyini bərpa etməklə yanaşı, işğal dövründə törədilmiş ağır cinayətlərə görə məsul şəxslərin ədalət mühakiməsinə cəlb olunmasına nail olub. Dövlətimizin başçısı müharibədən əvvəl verdiyi vədlərə sadiq qalaraq, Xocalı soyqırımı və digər cinayətlərin unudulmayacağını dəfələrlə bəyan etmişdi. Bu mövqe bu gün real nəticələrlə təsdiqlənir.*



*Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov bildirib.*

"Azərbaycan nadir ölkələrdəndir ki, heç bir xarici hərbi dəstək almadan, bütün siyasi təzyiqlərə baxmayaraq, torpaqlarını işğaldan azad edib və eyni zamanda, müharibə cinayətkarlarının məsuliyyətə cəlb edilməsini təmin edib. Bu, beynəlxalq təcrübədə nadir rast gəlinən nümunədir", deyə deputat vurğulayıb.

O deyib ki, Bakı Hərbi Məhkəməsindəki proseslə bağlı Azərbaycana qarşı müəyyən xarici dairələr tərəfindən əsassız siyasi təzyiqlər göstərilsə də, bu cəhdlər ölkə rəhbərliyinin prinsipial mövqeyinə təsir etməyib. Dövlət maraqları və ədalətin təmin olunması hər zaman prioritet olaraq saxlanılıb.

"Açıq keçirilən məhkəmə prosesləri zamanı təqdim olunan sübutlar, şahid ifadələri və təqsirləndirilən şəxslərin etirafları Ermənistan dövlətinin işğal siyasətində birbaşa iştirakını açıq şəkildə ortaya qoyub. Məhkəmədə səsləndirilən faktlar "qondarma rejim"in müstəqil qurum olmadığını, onun Ermənistan ordusunun tərkib hissəsi kimi fəaliyyət göstərdiyini sübut edib. Levon Mnatsakanyanın verdiyi ifadələr, hərbi təyinatların İrəvanda təsdiqlənməsi, təminat və idarəetmənin Ermənistan tərəfindən həyata keçirilməsi ilə bağlı faktlar işğalın dövlət səviyyəsində planlaşdırıldığını təsdiqləyib. Arayik Harutyunyan və Bako Sahakyanla bağlı materiallar da bu siyasətin sistemli xarakter daşıdığını göstərib. Məhkəmə prosesində zərərçəkmiş şəxslərin ifadələri işğal dövründə törədilmiş soyqırımı, urbisid və ekosid faktlarının miqyasını bir daha nümayiş etdirib. Bu ifadələr Azərbaycan xalqına qarşı həyata keçirilmiş cinayətlərin hüquqi əsaslarla sübuta yetirilməsində mühüm rol oynayıb", - deyə Vüqar İskəndərov diqqətə çatdırıb.

O qeyd edib ki, dünya təcrübəsində bir çox münaqişələr başa çatsa da, müharibə cinayətkarlarının məsuliyyətə cəlb olunmaması halları mövcuddur. Azərbaycan isə fərqli yanaşma ortaya qoyaraq, münaqişənin nəticələrini hüquqi müstəvidə də tamamlamağı bacarıb. Bu yanaşma münaqişələrin ədalətli həlli üçün nümunəvi model kimi çıxış edir. Azərbaycanın həyata keçirdiyi siyasət göstərir ki, davamlı sülh yalnız ədalət və hüquqi məsuliyyət əsasında mümkündür.

Deputat əmin olduğunu bildirib ki, Azərbaycan dövləti bundan sonra da beynəlxalq hüququn prinsiplərinə uyğun şəkildə, vətəndaşlarının hüquqlarının qorunması və tarixi ədalətin təmin olunması istiqamətində ardıcıl fəaliyyətini davam etdirəcək.